**Mirzə M.** Uşaqlar sənə əmanət // Respublika. - 2025. - 16 mart. - **№ 58**. - S. 13.

**44 günlük Vətən müharibəsi şəhidi Emin Alməmmədov sərt bir qış günündə 1989-cu il fevral ayının 27-də Şəmkirdə dünyaya göz açıb. Emin gəlişi ilə ailəsinə sevinc gətirir. Anası Xədicə Alməmmədova həmin günü belə xatırlayır: "Eminin dünyaya gəlişi bizim üçün əsl toy-bayram idi. Sanki soyuq qış ayında evimizdə günəş doğmuşdu. İsti, nurlu bir günəş, o günəş ki, həyatımızı aydınlandırdı. Bu körpənin üzündən bir nur yağırdı. Qohum-əqrabanın, dost-tanışın da sevincinə səbəb olmuşdu. Şaxtalı-boranlı bir gün bizə sanki hərarət verirdi. Ancaq nə biləydik ki, 31 ildən sonra... Məni qürurlu bir ada-şəhid anası adına layiq etdi. Hərdən ətrafıma baxıram. Sanki insanların həsəd dolu baxışları mənə yönəlir. Bir anlığa düşünürəm. Şəhidlər kimi, şəhid anaları da seçilmişlərdir. Oğlumla fəxr edirəm. Şəhidlər bir qəhrəmandır, eləcə şəhid anaları da".**

2007-ci ildə orta məktəbi bitirən Emin ali məktəbə sənəd vermək istədiyi vaxtda atasını itirir. Ailə başçısının yoxluğu onları maddi çətinliklə üz-üzə qoyur. Bu səbəb Eminin ali təhsil almasına ciddi təsir edir və ailəyə dəstək olmaq qərarını verir. Bacardığı qədər bunun öhdəsindən gəlir.

Nəhayət, Vətənə xidmət vaxtı çatır. 2008-ci ildə hərbi xidmətə yollanır. Xidmət dövründə özünü bacarıqlı bir əsgər kimi tanıdır. Komandirlərinin verdiyi tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir. Hərbi xidməti başa vurub evə qayıtmaq ərəfəsində hərbi hissə komandiri Eminə qalıb işləməyi təklif edir. Bu onun ürəyincə olsa da, anamın mənə daha çox ehtiyacı var deyə, düşünür. Vətənə borcunu yerinə yetirib evə dönür.

Ailə həyatı qurur. Sevdiyi Mələyini anasına gəlin edir. İki övladı-oğlu Əbəlfəz və qızı Xədicə dünyaya gəlir. Eminin həyat yoldaşı Mələk Alməmmədova ailə həyatı barəsindən belə bəhs edir: "Mən çox xoşbəxt idim ki, Emin kimi düşüncəli və ailəcanlı bir insanla həyat qurmuşam. O, çox sadə və qayğıkeş insan idi. Həm övladlarına qarşı, həm də anasına qarşı çox diqqətcil idi".

2013-cü ildə hərbiyə dönmək qərarına gəlir. "N" saylı hərbi hissədə xidmətə başlayır. Kiçik çavuş rütbəsi ilə işinə ürəkdən yanaşır. Hərbi biliklərini daha da təkmilləşdirir. Bir gün lazım olacaq deyə, düşünür.

Böyük çavuş rütbəsi aldıqdan sonra Emin Silahlı Qüvvələrinin təlim və tədris mərkəzində İdarəetmə maşın heyəti rəisi ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirir.

Gizir rütbəsini alır. Müxtəlif hərbi təlimlərdə yüksək nəticələr göstərərək Fəxri fərmanlarla mükafatlandırılır. Bu isə onu daha məsuliyyətli olmağa sövq edir. Eminin bir çox rayonlarda- Şəmkir, Tovuz, Ağstafa, Goranboy və Daşkəsəndə hərbi xidməti onu daha da püxtələşdirir.

İyul döyüşləri başlamazdan əvvəl ailəsini Daşkəsəndə yanında saxlayır.

Həmin günləri Eminin həyat yoldaşı belə xatırlayır: General-mayor Polad Həşimovun şəhid olmasından böyük sarsıntı keçirdim. Anladım ki, artıq müharibə başlayıb. Narahatlıq hissi keçirməyə başladım. Telefon vasitəsilə əlaqə yaratmaq cəhdlərim boşa çıxdı. Günün sonu Emin evə döndü. Bu haqda mən ona heç nə demədim ki, məyus olmasın. Bir neçə dəqiqədən sonra Eminin telefonuna zəng gəldi və arxa otağa keçdi. Ondan xəbər çıxmadığına görə yanına keçdim. Gördüm ki, əlində telefon gözlərindən yaş axır. Sonra məlum oldu ki, Polad Eminin komandiri olub. Yaxından tanıyırmış.

Nəhayət, sentyabr ayı. Barıt qoxulu günlərin çox uzaqda olmadığını düşünən Emin ailəsini doğma Şəmkirə, anasının yanına gətirir. Eminin son günü isə sentyabrın 15-i olur. Oğlu Əbəlfəzi məktəbə qoyaraq hərbi hissəyə qayıdır.

26 sentyabr gecə saat 9 radələrində Emin həyat yoldaşına görüntülü zəng edir. Bu bir dəqiqə davam edir və əlaqə kəsilir. Bundan bir neçə dəqiqə sonra Mələyə bir mesaj göndərir: "Hər şeyə möhkəm və səbirli ol!. Uşaqları sənə, səni də Allaha əmanət edirəm!".

Həmin gecə Mələk üçün sanki bir ili əvəz edir. Mələk eşitdiyi atışma və təcili yardım maşınlarının səslərindən daha da həyəcanlanır. O, durmadan Eminə zəng edir. Lakin telefonu bağlı olduğundan əlaqə yarada bilmir. Əlacsız şəkildə sabahın açılmasını gözləyir. Sonra sübh tezdən uşaqları da götürüb Dəşkəsən Rayon Mərkəzi Xəstəxanasına gedir. Orada gördüyü dəhşətli mənzərədən sarsıntı keçirir. Xeyli yaralılar görür. Ürəyində mənim yoldaşım burada olmaz, desə də, Emini axtarmağa başlayır.

Mələk Eminin anasına zəng edir, narahatçılığı barədə ona məlumat verir. Ana təlaşlanır, evini tərk edib yola sarı boylanır. O, müharibənin başlanmasını eşidir. Oğlunun qulluq etdiyi hərbi hissəyə-Daşkəsənə üz tutur. Yolda olarkən Şəmkirdə Eminin qəhrəmancasına həlak olması xəbəri dərhal yayılır. Emin elə müharibə başlayan gün Kəlbəcər istiqamətində gedən döyüşlərin birində, sentyabrın 27-də qəhrəmancasına həlak olur. Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən

sonra Emin Alməmmədov "Vətən uğrunda", Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərinə görə" medalları ilə təltif olunmuşdur.